

Milli azadlıqdan şirin nemət yoxdur!

# Tarixi şəhərlərimiz yenidən dirçəlir



Bax səh. 3

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 5 oktyabr 2023-cü il, cümə axşamı / № 181 (6525). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

## Vətən müharibəsinin 9-cu günü



İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

Translate Tweet

8:33 PM · Oct 5, 2020 · Twitter for iPhone

### 05.10.2020

• Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib.

• Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 63-cü tank taborunun daha 3 tankı məhv edilib. Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan ordusunun atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və texnikalarının fotoşəkillərini yayıb.

• Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə raket buraxılışını qeydə alıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 5 oktyabr saat 16:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 25-ə, xəsarət alanların sayı isə 127-yə çatıb. Bundan başqa, 316 evə və 56 mülki obyektə ciddi ziyan dəyib.

# Prezidentdən qətiyyətli addım



Bax səh. 2

# Fransanın iştirak etdiyi hər hansı format Azərbaycan üçün məqbul deyil

## Statutun bədəli...



Bax səh. 6

## “Miatsum” kitabı bağlandı!

### 3 “prezident”, 1 “spiker”, 1 “dövlət naziri”, 1 “müdafiə naziri və müavini”...

Bax səh. 7

## Gürcüstanda çevriliş planını kim qurur?



Bax səh. 6

## Tarazlı inkişaf strateji məqsəd kimi

Paytaxtlarla, iri şəhərlərlə əyalətlər arasında fərqin artması bütün dünyada narahatlıq yaradan məsələlərdəndir. Müşahidə edirik: Bir sıra ölkələrdə inkişaf əsasən, iri şəhərlər, ələlxüsus da sənaye mərkəzləri ətrafında təmərküzləşir. Beləliklə, əyalətlər, necə deyərlər, gözdən-könüldən uzaq düşür, inkişafla bağlı ciddi problemlər yaşanır. Azərbaycan nümunəsində isə biz tamam fərqli bir mənzərənin şahidi oluruq...

Bax səh. 4

## Danışır və göstərir Qarabağ!

Oktyabrın 3-də Audiovizual Şuranın növbədənkənar iclasında Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun ərazisində keçirdiyi uğurlu və sürətli lokal antiterror tədbirləri, bu tədbirlərdən sonra bölgədə yaranan vəziyyət, həmin bölgədə yaşayan əhalinin informasiya təminatının yaradılması və bölgənin ümumölkə informasiya məkanına reinteqrasiyasının təmin olunması, habelə lisenziyaların alınması üçün “Baku TV” MMC-nin...

Bax səh. 6

## USAİD təxribatlarının izi ilə...

USAİD təşkilatının (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) ayrı-ayrı ölkələrdə fəaliyyətini izlədikdə qırmızı xətt kimi keçən birməqam diqqəti xüsusi çəkir. Qurumun adı işlədiyi ölkələrdə daim siyasi proseslərə açıq müdaxilə, hakimiyyət çevrilişlərinə cəhd və digər belə hadisələrdə hallanıb. Bu təşkilat ABŞ-ın digər ölkələrin daxili işlərinə açıq şəkildə müdaxilə, özünə sərf etməyən hakimiyyətlərin devrilməsi strategiyasında xüsusi rol oynayır. Qurum 2023-2025-ci illərdə müxtəlif ölkələrdə “vətəndaş cəmiyyəti” quruculuğuna 10 milyard dollara yaxın vəsait ayırıb. Havayı pendir ancaq tələdə olur. USAİD də vəsaitləri sırf milli...

Bax səh. 5

## F-16 qırıcılarına “maneə” aktiv deyil...

Türkiyə ilə ABŞ arasında F-16 qırıcı təyyarələrinə dair müzakirələr hələ də davam edir. Hələ bu ilin iyul ayında iki ölkənin liderləri telefon danışığında müzakirə etmiş və məsələnin həllində irəliləyiş olduğu bildirilmişdi. O zaman ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan jurnalistlərə məlumat vermişdi ki, Prezident Co Bayden Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı Türkiyəyə F-16 qırıcılarının tədarükünün Birləşmiş Ştatların maraqlarına uyğun olduğunu deyib. Ankaraya döyüş təyyarələrinin tədarükü ilə bağlı vəziyyəti şərh edən Ceyk Sallivan qeyd edib: “Bayden açıq və...

Bax səh. 5

## Riyakarlığın klassik nümunəsi...

Fransanın xarici işlər nazirinin Ermənistana səfəri çərçivəsində verdiyi açıqlamalar, o cümlədən Ermənistanla hərbi yardım barədə sazişin imzalanması, Avropa İttifaqının missiyasının mandatının gücləndirilməsi barədə fikirləri rəsmi Parisin Cənubi Qafqaz regionuna geosiyasi rəqabət gətirməkdə maraqlı olduğunu, Ermənistanı militarizmə və revanşizmə sövq etdiyini göstərir.

Bu fikirlər Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada yer alıb.

Açıqlamada, həmçinin deyilir: “30 il ərzində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə, etnik təmizləməyə, 1 milyon azərbaycanlı qaçqın və köçkünün iztirablarına göz yuman, hətta bunu ört-basdır edən Fransanın indi Ermənistanın ərazi...

Bax səh. 5

## Paris Nigeri İrəvanla əvəzləyir?



Bax səh. 5

## Ukraynaya arxadan vurulan zərbə...



Bax səh. 6



# Volodimir Zelenski İlham Əliyevə təşəkkür edib

Oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparılıb.

# Xoşbəxt Bağı oğlu Yusifzadə



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli neftçi-alim və geoloq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika dövlət mükafatları və Heydər Əliyev Mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Xoşbəxt Bağı oğlu Yusifzadə 2023-cü il oktyabrın 3-də ömrünün 94-cü ilində vəfat etmişdir.

Xoşbəxt Yusifzadə 1930-cu il yanvarın 14-də Bakı şəhərinin Pirşağı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1947-1952-ci illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı fakültəsində dağ mühəndisi-geoloq ixtisası üzrə ali təhsil almışdır.

Xoşbəxt Yusifzadə 1960-cı ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2005-ci ildə professor elmi adını almış, 2007-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1952-ci ildə SSRİ Neft Sənayesi Nazirliyinin Layihə İnstitutunun Bakı filialında mühəndis-geoloq kimi başlayan Xoşbəxt Yusifzadə 1954-cü ildək "Dənizneft" Birliyində geoloji şöbə rəisinin müavini və "Azneft" İstehsalat Birliyində böyük geoloq, 1954-1963-cü illərdə indiki "Neft Daşları" Neft və Qazçıxarma İdarəsində böyük geoloq, baş geoloq və rəis vəzifələrində işləmiş, 1963-1970-ci illərdə "Başdənizneft" İdarəsində şöbə rəisi, 1970-1992-ci illərdə isə "Xəzərdənizneft" Birliyində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.

Xoşbəxt Yusifzadə 1992-ci ilin may ayından "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti olmuş, həmin ilin noyabrından ömrünün sonunadək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində prezidentin müşaviri, vitse-prezident və birinci vitse-prezident vəzifələrini tutmuşdur.

Akademik Xoşbəxt Yusifzadə Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış şəxsiyyətlərdəndir. Xəzərdə genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və dənizin zəngin potensialının üzə çıxarılmasında onun müstəsna xidmətləri vardır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə 20-dən artıq neft və qaz yatağı, o cümlədən "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilərək istismara verilmişdir. Həmin yataqların kəşfi ölkəmizin neft strategiyasının milli mənafelərə uyğun gerçəkləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Neft-qaz geologiyası üzrə səriştəli mütəxəssis olan Xoşbəxt Yusifzadə uzun illər ərzində topladığı zəngin təcrübəsini neft sənayesi strukturlarında məsul vəzifələrdə çalışarkən öz təşkilatçılıq bacarığı ilə ahəngdar şəkildə birləşdirirdi.

Xoşbəxt Yusifzadə eyni zamanda neft və qaz sənayesinin aktual problemlərinin həlli, neft-qaz hasilatının inkişafı və geofiziki axtarış üsullarının təkmilləşdirilməsi sahəsində fundamental araşdırmaların müəllifi kimi tanınmışdır. Onun elmlə istehsalatın sıx bağlılığını əyani təcəssüm etdirən tədqiqatları Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənməsi zamanı elmi metodların tətbiqində xüsusi rol oynamışdır. Xoşbəxt Yusifzadənin apardığı tədqiqatların nəticələri onun 200-ə yaxın elmi əsərində öz əksini tapmışdır. Alimin neft emalı sənayesində ixtiraları respublika iqtisadiyyatına böyük səmərə gətirmiş, karbohidrogen ehtiyatlarının həcmi ilə bağlı hesablamaları həmişə özünü doğruldaraq, ona həmkarları arasında nüfuz qazandırmışdır.

Xoşbəxt Yusifzadənin Azərbaycanın neft-qaz sənayesinin inkişafında əvəzsiz xidmətləri və çoxillik səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatları - "Heydər Əliyev", "İstiqlal", "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Görkəmli neftçi-alim və geoloq, səmimi və təvazökar insan Xoşbəxt Bağı oğlu Yusifzadənin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Şahmar Mövsümov
Fərəh Əliyeva
Mikayıl Cabbarov
Pərviz Şahbazov
Emin Əmrullayev
Rövşən Nəcəf
İsa Həbibbəyli
Akif Əlizadə
İbrahim Quliyev.

# Prezidentdən qətiyyətli addım

## Fransanın iştirak etdiyi hər hansı format Azərbaycan üçün məqbul deyil

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpa edilməsi prosesinə mane olan destruktiv güclər yenidən fəallaşıb. Belə ki, Ermənistan ilə Azərbaycan arasında sülhün formalaşdırılması prosesinin baş tutmamasına çalışan "Paris və onun komandası" növbəti dəfə təxribatdan əl çəkməyib. Belə ki, APA-nın yaydığı xəbərə görə, Azərbaycan İspaniyanın Qranada şəhərində oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtina edib. Azərbaycanın görüşdə imtina etməsinin səbəbləri açıqlanıb.



### Paris yenə sülhə qarşı...

Xəbərdə bildirilir ki, ölkəmiz görüşdə Türkiyənin iştirakını təklif etmişdi və bunda israr edirdi. Lakin buna imkan verilməyib, bu məsələdə Fransa və Almaniya xüsusi canfəşanlıq nümayiş etdirib. Azərbaycana təklif olunan beşli formatda (Ermənistan-Azərbaycan-Fransa-Almaniya-Avropa İttifaqı) anti-Azərbaycan abhavası formalaşıb. Fransa rəsmilərinin (müdafiə naziri, xarici işlər naziri və s.) ermənipərəst bəyanatları, XİN başçısının Ermənistana səfəri və hərbi əməkdaşlıq, silah-sursat veriləcəyi haqda açıqlamalar, Aİ Şurasının Prezidenti Şarl Mişelin dünənki Azərbaycanı ittiham edən açıqlaması fonunda Azərbaycan bu formatda danışıqlarda iştiraka lüzum görməyib. Buna görə Azərbaycan bu görüşdən imtina edib və Prezident İlham Əliyev Qranadaya getməyib. Çünki belə format Azərbaycana lazım deyil. Bakı regiondan uzaq ölkələrlə regionun problemlərini müzakirə etməyə lüzum görmür. Bakı hesab edir ki, bu məsələlər regional çərçivədə müzakirə və həll edilə bilər. Bununla belə, əvvəlki Aİ-Azərbaycan-Ermənistan üçlü formatı gündəmə gələrsə, Azərbaycan görüşdə iştirak edə bilər. Fransanın iştirak etdiyi heç bir format Azərbaycan üçün məqbul deyil, Bakı belə platformada iştirak etməyəcək. Qeyd edək ki, oktyabrın 5-də Qranadada Avropa Siyasi Birliyinin sammiti keçiriləcək. Beştərəfli görüş sammit çərçivəsində baş tutmalı idi.

### Proses bitib

Fransanın həyata keçirdiyi açıq ermənipərəst siyasət prosesin nizamlanmasına xidmət etmir, əksinə ona mane olur. Rəsmi Paris addımbaşı ölkəmizə qarşı təxribat xarakterli siyasəti ilə yadda qalır. Qərəzli qətnamələr, Frankofoniya Sammitində Azərbaycana qarşı ədalətsiz mövqe, BMT TŞ müstəvisində 3 dəfə Azərbaycana qarşı beynəlxalq təzyiq kampaniyasının formalaşdırılmasına cəhdlər buna bariz misaldır. Belə bir şəraitdə isə Fransanın Azərbaycan ilə Ermənistan arasındakı sülh danışıqlarında iştirakı mümkünsüzdür və Azərbaycan birmənalı olaraq Fransanın bu və ya digər şəkildə danışıqlar prosesində iştirakını məqbul saymayıb. Nəzərə almaq gərəkir ki, hətta işğal dövründə belə keçmiş münaqişənin tənzimlənməsi istiqamətində gedən danışıqlar prosesində ATƏT-in Minsk qrupunun üzvü kimi iştirak edən Fransa illərlə ermənipərəst addımları ilə yadda qalmışdı. Müharibə dövründə də Azərbaycana qarşı açıq təhdid çıxışları edən bu ölkə öz fəaliyyəti ilə beynəlxalq hüquqa qarşı hörmətsizlik nümayiş etdirib. Hətta Fransa Qarabağ münaqişəsinin başa çatması ilə tarixə qovuşan Minsk qrupunu yenidən diriltmək cəhdləri belə göstərib. Amma Azərbaycan üçün bu proses artıq bitib. Vətən müharibəsində əldə olunan qələbə, 24 saatlıq antiterror tədbirləri yeni siyasi reallıqlar formalaşdırıb. Bu gün separatçı rejimin rəhbərləri Bakıda qanun qarşısında cavab verir. Ortada olan bu kimi gözardı edilməsi mümkünsüz olan reallıqlar isə sülh danışıqlarının iki dövlət - Ermənistan və Azərbaycan arasında aparılmasını zəruri edir. Beynəlxalq oyunçu kimi bu prosesdə iştirak edən Fransa, Almaniya və digərləri isə birmənalı şəkildə haqqı, ədaləti, demokratiyanı dəstəkləməli, beynəlxalq hüquqa qarşı hörmət nümayiş etdirməlidirlər.

### Müharibə arzusunda olan Fransa...

Halbuki Fransadan gələn son "səs-səda" irəli sürülən bəşəri dəyərləri, sülhü və humanizmi özündə əks etdirmir. Tam əksinə, Ermənistanı silahlandırmağa çalışan Fransa regionda sülh və təhlükəsizlik arxitekturasının qurulmasına imkan vermək istəmədiyini ortaya qoyur. Məsələn, Fransanın müdafiə naziri Sebastyan Lekornyunun Ermənistanda indiyədək mövcud olmayan hərbi missiya açdıqlarını bəyan etməsi deyilənləri təsdiqləyir. Müdafiə naziri bildirib ki, bu missiya bizə gündəlik olaraq Ermənistan ordusu və hakimiyyəti ilə əlaqədə olmaq, onların müdafiə sahəsində tələbatlarını öyrənməyə imkan verəcək. Bu fakt təsdiqləyir ki, Paris Ermənistanı yeni müharibəyə təhrik edir və hazırlayır. Eyni zamanda, Ermənistanın əli ilə regiona nüfuz etməyə çalışan Fransa məhz silah, qarşıdurma və müharibə gücünə burada müstəmləkəçi niyyətlərini bərqərar etmək arzusundadır. Fransa bu gün Ermənistanı özündən asılı vəziyyətə salaraq Cənubi Qafqazda da Afrika siyasəti yürütməyə çalışır, bölgədə sülhün bərqərar olması Parisin maraqlarına cavab vermir. Bu səbəbdəndir ki, Qranada görüşü də Fransanın qeyri-konstruktiv danışıqları ucbatından baş tutmur.

### Ermənistan Fransadan imtina etməsə...

Ermənistan isə Fransanın "arxa bağçası"na çevrilməkdən imtina etməli və regionda sülhün formalaşmasına töhfə verməlidir. Bu ölkə uğradığı hərbi və siyasi məğlubiyyətdən nəticə çıxarmalıdır. Yeni himayəçi tapmaq və bu dəfə Fransanın "forpostu" olmaq istəyi Ermənistana baha başa gələ bilər. Ermənistan yenidən sosial problemlərin, iqtisadi yoxluğun girdabından xilas ola bilməyəcək. Halbuki Azərbaycanla sülhün bağlanması bu dövlətə müstəqil olmaq imkanı yaradır - İrəvan yalnız bu halda müstəqil subyekt kimi əməkdaşlıq platformalarının tərəfinə çevrilə, iştirakısı ola bilər. Əks halda...

**P.SADAYOĞLU**

# Bölgədə sülhün, təhlükəsizliyin və ədalətin bərqərar olmasına əsas təhdid mənbəyi...

## XİN: Bu bəyanat, həmçinin həbsi həyata keçirilmiş şəxslər tərəfindən törədilmiş əməllərə bəraət qazandırılması cəhdidir



Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan tərəfindən erməni separatçıların həbs edilməsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını şərh edib.

Nazirliyin şərhində deyilir: "Ermənistan Xarici İşlər Nazirliyinin Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalı nəticəsində suveren ərazilərimizdə yaratdığı qondarma separatçı rejimin üzvlərinin Azərbaycan tərəfindən həbsinə etiraz olaraq 4 oktyabr tarixində verdiyi bəyanatı qətiyyətlə pisləyirik.

Sözügedən bəyanat Ermənistanın Azərbaycana qarşı onilliklər ərzində yürütdüyü təcavüzkar siyasət və əməllərdən əl çəkmədiyini nümayiş etdirir. Bu bəyanat, həmçinin həbsi həyata keçirilmiş şəxslər tərəfindən törədilmiş əməllərə bəraət qazandırılması cəhdidir.

Azərbaycana qarşı təcavüzdə, separatçılığın təşviq edilməsində, terror əməllərində, əsirlikdə olan hərbi qulluqçular və mülki şəxslərə qarşı sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlər törədilməsi və digər faktlar üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi çərçivəsində qeyd edilən şəxslərin həbsi ədalətin bərpasına xidmət edir və bu addımların legitimliyinin şübhə altına alınması qəbuledilməzdir.

Qeyd edilənlərlə yanaşı, tərk-silaha razı olan minlərlə Ermənistan hərbçilərinin və qanunsuz hərbi birləşmələrin Azərbaycan tərəfindən humanist addım olaraq sərbəst buraxıldığı və heç bir manea olmadan Ermənistana getdiyi Ermənistan XİN-nə yaxşı məlumdur və bu xüsusda Ermənistanın apardığı saxta kampaniyanın heç bir əsası yoxdur. Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana getmiş erməni sakinlərin öz yaşayış yerlərinə geri qayıtmasını təşviq etmək əvəzinə, onlar arasında təşviş yaratmaq və Azərbaycana qarşı irqi və etnik nifrət aşılamaq məqsədi daşıyan bu bəyanat Ermənistanın sülh səylərinə mane olan destruktiv fəaliyyətinin tərkib hissəsidir.

Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində düçar olduğu uğursuzluqlara rəğmən, yenə də əsassız olaraq və beynəlxalq hüququn norma və prinsiplərinə zidd şəkildə məhkəmə qarşısında iddialar irəli sürməkdə davam etməsi bu ölkənin Azərbaycanla sülh və normallaşma prosesində maraqlı olmadığını nümayiş etdirir. Ermənistanın bu kimi fəaliyyəti bölgədə sülhün, təhlükəsizliyin və ədalətin bərqərar olmasına əsas təhdid mənbəyidir".

# Tarixi şəhərlərimiz yenidən dirçəlir

## İndiyədək 2300 keçmiş məcburi köçkün evlərinə qayıdıb

### İlin sonuna qədər onların sayı 5500-ə çatdırılacaq

*Mübariz ABDULLAYEV*

Azərbaycan öz həqiqətlərini dünyaya çatdırmaq üçün müxtəlif platformalarda beynəlxalq əməkdaşlığa böyük önəm verir. Bu baxımdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır. Ölkələrin təcrübəsi göstərir ki, şəhərsalma və şəhərlərin inkişafı davamlı inkişafın təmin olunmasında mühüm rol oynayır. Davamlı qlobal urbanizasiya tendensiyaları fonunda, hər bir ölkənin üzləşdiyi spesifik çağırış və imkanlar bu inkişaf proqramının əhəmiyyətini daha da artırır. Ona görə də işğaldan azad edilmiş ərazilərimizə həyatın geri qaytarılması, dayanıqlı inkişaf, şəhər və digər yaşayış məskənlərinin yenidən qurulması sahəsində həyata keçirilən fəaliyyət, görülmüş işlər, eləcə də Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, Azərbaycanın bu sahədə topladığı təcrübəni beynəlxalq tərəfdaşlarla bölüşməsi məqsədilə Milli Şəhərsalma forumlarının təşkil edilməsi, xüsusilə də tədbirin azad edilmiş ərazilərdə keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Şəhərsalma məsələsinin ölkəmiz üçün prioritetliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Məskunlaşma Proqramı (UN-HABİTAT) ilə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib. 2023-cü il sentyabrın 29-da isə BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi baş tutub. Açılış mərasiminə qatılan Prezident İlham Əliyev tədbirdə çıxış edib.

## Erməni vandalizminin kədərli izləri - sərhəd tanımayan urbisid və kultursid

Vətən müharibəsində işğaldan azad olunmuş ərazilər dünyada özlərindən "mədəni xalq" mifi uyduran ermənilərin gerçək simalarını bütün cəhətləri ilə açıb ortaya qoyur. Bu ərazilərdə yaşayan azərbaycanlılar öz ev-eşiklərindən zorla çıxarılıb, eyni zamanda ucdantutma hər şey dağıdılıb və yerlə-yeksan edilib. Tədbirdəki çıxışında Ermənistanın işğalçılıq siyasətinə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, bizə qarşı etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib. "Otuz il ərzində bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən artığı hazırkı Ermənistan ərazisindən sürgün edilib. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib. 30 il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi", - deyə dövlətimizin başçısı vurğulayıb.

Otuz illik işğal dövründə məqsədli şəkildə viran qoyulan şəhər və kəndlərimizin siyahısı çox uzundur. Bu siyahıda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan eyni zamanda Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, talayaraq, onları əsl urbisid (şəhərlərə qarşı genosid) və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib. Sözsüz ki, İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunanda Azərbaycan Ordusu orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın. Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

## Ərazilərin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı

Müharibə başa çatandan sonra ermənilər iddia edirdilər ki, işğaldan azad olunmuş əraziləri bərpa etməyə Azərbaycanın gücü çatmayacaq, bundan ötrü onilliklər lazım gələcək. Ancaq belə olmadı. Müharibə başa çatandan dərhal sonra bütün dünya dövlətimizin və xalqımızın torpaq sevgisinin, gücünün və qüdrətinin bir daha şahidi oldu.

İşğaldan azad olunmuş ərazilərin bərpasına vaxt itirilmədən start verildi. Ölkəmiz bu ərazilərin bərpasını və ora soydaşlarımızın layiqli şəkildə qaytarılmasını özünün beş mühüm prioritetindən biri kimi müəyyənləşdirib. Artıq bəhs olunan ərazilərimizə həyat geri qayıdır. Vətən müharibəsindən sonra Azərbaycan keçmiş məcburi köçkünləri öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün urbisidə məruz qalmış 10 min kvadratkilometrdən çox ərazini sıfırdan yenidən qurur, şəhərlər və kəndlər inşa edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"na əsasən ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub.

Ümumilikdə 2021-2023-cü illərdə dövlətimizin başçısı tərəfindən 105 layihənin təməli qoyulub, 63 müxtəlif təyinatlı tikinti obyektinin açılışı keçirilib. Ərazidə sosial infrastruktur yenidən qurulur, Füzuli və Zəngilanda olmaqla iki hava limanı, çoxlu sayda avtomobil yolları, su elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar və sair tikilib istifadəyə verilib. Hazırda yeni layihələrin icrası sürətlə davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin 97 min hektardan çoxu mina və partlamamış hərbi sursatlardan təmizlənib. İndiyədək 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə xüsusilə Şuşa və digər şəhərlərdə çox böyük, iri həcmli yaşayış layihələrinin həyata keçiriləcəyini xatırladan dövlətimizin başçısı deyib ki, bu, bizim Proqramın tərkib hissəsidir.

Eyni zamanda, artıq işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılmasına start verilib. Ötən ilin iyul ayından etibarən ilkin olaraq 2 şəhərə (Laçın və Füzuli şəhərləri) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) keçmiş məcburi köçkünlərin qayıdışı reallaşdırılıb. Bütövlükdə indiyədək 2300 keçmiş məcburi köçkün evlərinə qayıdıb. İlin sonuna qədər onların sayı 5500-ə çatdırılacaq. "...Bu gün biz şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu, ilk növbədə, onu göstərir ki, Azərbaycan xalqı öz vətəninə nə dərəcədə bağlıdır. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər", - deyə dövlətimizin başçısı bildirib.






## Zəngilanda yeni yaşayış kompleksləri salınır

İşğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin bərpası getdikcə daha geniş miqyas alır. Prezident İlham Əliyev bu günlərdə Zəngilan və Cəbrayıl rayonlarına növbəti səfəri çərçivəsində çoxsaylı infrastruktur obyektləri ilə yanaşı, ayrı-ayrı ünvanlarda layihələndirilən yeni yaşayış komplekslərinin də təməlqoyma mərasimlərinə qatılıb. O cümlədən dövlətimizin başçısının iştirakı ilə Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməli qoyulub. Zəngilan şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Şəhərdə daha əvvəl təməli qoyulan 110 mənzildən ibarət ilk yaşayış kompleksinin layihələri hazırdır və yaxın vaxtlarda tikinti işlərinə başlanacaq.

Tədbirdə bildirilib ki, "Böyük Qayıdış" proqramına uyğun olaraq, növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulur. İkinci yaşayış kompleksi Qələbə və Memorial parkların yaxınlığında, şəhərin azsıxlıqlı zonasında yerləşməklə, əsasən "taunhaus" tipli evlərdən ibarət olacaq. Plana əsasən, burada 87 mənzil nəzərdə tutulur.

Zəngilan şəhərində sentyabrın 28-də dövlət başçısının təməlini qoyduğu 3-cü yaşayış kompleksi iki sahəyə bölünüb və hər biri üçün özünəməxsus konsepsiya hazırlanıb. Binaların memarlıq baxımından fərqliliyini təmin etmək məqsədilə onlar müxtəlif üslubda layihələndirilib.

Məlumat verilib ki, ümumi sahəsi iki hektar olan yaşayış kompleksində tikiləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar 8 blokdan və 192 mənzildən ibarət olacaq.

Zəngilan şəhərində təməli qoyulan 4-cü yaşayış kompleksinin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi iki hektardır. Şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır.




## Cəbrayılda regionlarımızın adı verilən yaşayış kompleksləri

Azərbaycan Prezidenti Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi - Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Bildirildiyi kimi, ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi 33 binadan ibarətdir. Dördmərtəbəli və beşmərtəbəli binalarda ümumilikdə 712 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-sının ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-nin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur. Birotaqlı mənzillərin sahəsi 40-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edəcək.

Altı kvartaldan ibarət kompleksin inşası sürətlə və keyfiyyətlə həyata keçirilir. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Dövlətimizin başçısına Şirvan, Lənkəran və Yevlax Yaşayış kompleksləri barədə də məlumat verilib. Qeyd olunub ki, 8 hektardan çox ərazidə 25 binadan ibarət Şirvan Yaşayış Kompleksinin inşasına başlanılıb. Burada 9 mərtəbəli 14, 12 mərtəbəli 11 bina inşa ediləcək. Kompleksdə 32-si studio tipli, 216-sı ikiotaqlı, 768-i üçotaqlı və 248-i dördotaqlı olmaqla ümumilikdə 1264 mənzil olacaq. Bundan başqa, 960 şagird yerlik orta məktəb binası və 80 yerlik uşaq bağçası da tikiləcək.

Tikintisi yekunlaşmaqda olan Lənkəran Yaşayış Kompleksində doqquzmərtəbəli 5 bina inşa edilib. Binalarda ümumilikdə 240 mənzil var. Mənzillərin 32-si birotaqlı (studio tipli), 36-sı ikiotaqlı, 104-ü üçotaqlı, 68-i isə dördotaqlıdır.

Yeddimərtəbəli 6 binadan ibarət Yevlax Yaşayış Kompleksinin inşasına tezliklə başlanılacaq. Kompleksdə 28-i birotaqlı, 14-ü studio tipli, 84-ü ikiotaqlı, 139-u üçotaqlı, 64-ü isə dördotaqlı olmaqla ümumilikdə 329 mənzil olacaq.

# Xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisi

## Qax rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qax rayon təşkilatı oktyabr ayının 4-də Qax şəhər Heydər Əliyev Mərkəzində tədbir keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.





Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Prezident İlham Əliyev ölkəmizə möhtəşəm nailiyyətlər qazandırıb.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzsiz xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov deyib ki, Ümummilli Lider Heydər Əliyev tarix yaradan fenomenal şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü əhatə edir.

Qax rayonu üzrə Gənclər və İdman sektorunun müdiri Elvin Həsilov və Vətən Müharibəsi iştirakçısı, Əmircan kənd orta məktəbinin müəllimi Təbriz Cavadovun çıxışlarında vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisini təmin edib, torpaqlarımız işğaldan azad olunub və ölkəmiz möhtəşəm nailiyyətlərə imza atmaqdadır.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Azərbaycanda ilk dəfə Musiqi forumu keçiriləcək

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Musiqi forumu keçiriləcək.




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbirlər çərçivəsində oktyabrın 29-31-də gerçəkləşəcək forum Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə təşkil olunacaq.

Oktyabrın 29-da “Gülüstan” Sarayında tanınmış musiqişünas alimlərin, bəstəkar, dirijor və ifaçıların iştirak edəcəyi forumun açılış mərasimi keçiriləcək.

Mədəniyyət ictimaiyyətinin iştirakı ilə geniş müzakirələrin aparılacağı forumda musiqi yaradıcılığı, musiqidə ənənə və onun ötürülməsi, musiqinin istehlakı və təbliği, bu sahənin tədqiqi, xoreoqrafiya və s. mövzular üzrə panellər təşkil olunacaq.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək “Azərbaycan mədəniyyəti - 2040” Konsepsiyasında öz əksini tapacaq.

Musiqi forumunda iştirak etmək istəyən şəxslər 26 oktyabr tarixinədək onlayn müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.

# Ulu Öndərin əbədiyaşar ideyaları xalqımızın dəyərli sərvətidir

## Samux rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Samux rayon təşkilatı oktyabrın 4-də rayon Mədəniyyət Mərkəzində tədbir keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışaraq bildirib ki, Azərbaycan tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev deyib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir.





YAP Təftiş Komissiyasının üzvü, Milli Məclin deputatı Naqif Həmzəyev çıxışında söyləyib ki, ulu öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir.

YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov diqqətə çatdırıb ki, bu gün Ümummilli Lider Heydər Əliyevin arzuları reallaşır. Dahi şəxsiyyətin uzaqgörən, praqmatik siyasəti nəticəsində Azərbaycan dövləti yüksəlişlərlə, qələbələrlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır.

Samux rayon Ağsaqqallar Şurasının üzvü Nizami Məmmədov və Samux şəhər 2 saylı tam orta məktəb ərazi partiya təşkilatının üzvü Rufanə Məmmədova müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi barədə ətraflı danışıblar.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

# YAP Füzuli rayon təşkilatının yeni təyin olunmuş sədri ictimaiyyətə təqdim edilib

Yeni Azərbaycan Partiyasının (YAP) Füzuli rayon təşkilatının yeni təyin olunmuş sədri Nazimə Şamıyeva oktyabrın 4-də ictimaiyyətə təqdim edilib.

Füzulidə keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi: “YAP zəngin və şərəfli inkişaf yolu keçib. Bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni nailiyyətlərə imza atır”.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov partiyanın VII qurultayından ötən dövr ərzində həyata keçirilən işlər barədə məlumat verib.





Sonra partiyanın Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Nazimə Şamıyeva göstərilən etimada görə təşəkkürünü bildirərək üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağını bildirib.

Partiya fəalı Almaz Həşimova Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinin onun yaradılmasının ilk illərindən göründüyünü qeyd edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanmaqdadır.

Tədbirdə rayon t

əhsil sektorunun müdiri Ramella Məmmədova, Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev və Gənclər Evinin direktoru Seyfəddin Maqsudov çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizə möhtəşəm uğurlar qazandırdığını diqqətə çatdırıblar.

Çıxış edənlər YAP Füzuli rayon təşkilatının sədrini təbrik edərək məsuliyyətli və şərəfli işində uğurlar arzulayıblar.

# Tarazlı inkişaf strateji məqsəd kimi

## Regionların inkişafı sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir

*Günel ABBAS*

Paytaxtlarla, iri şəhərlərlə əyalətlər arasında fərqin artması bütün dünyada narahatlıq yaradan məsələlərdəndir. Müşahidə edirik: Bir sıra ölkələrdə inkişaf əsasən, iri şəhərlər, ələlxüsus da sənaye mərkəzləri ətrafında təmərküzləşir. Beləliklə, əyalətlər, necə deyərlər, gözdən-könüldən uzaq düşür, inkişafla bağlı ciddi problemlər yaşanır. Azərbaycan nümunəsində isə biz tamam fərqli bir mənzərənin şahidi oluruq.



2004-cü ildən bəri Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsi ilə inkişafın fərqli modelinin tətbiqinə başlayıb. Bu model özündə ölkənin bütün bölgələrinin tarazlı inkişafını ehtiva edir. Ölkəmizin spesifik inkişaf modelinin özəlliyindən bəhs edən ekspert Aygün Məmmədova vurğulayıb ki, Azərbaycanda regionların inkişafına ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılır. Başqa sözlə desək, ölkə üzrə tarazlı inkişafın təmin olunması strateji məqsəd kimi qarşıya qoyulub və son 19 ildə bu hədəfə doğru inamlı addımlar atılıb. “Respublikamızda Prezident İlham Əliyevin müvafiq Fərmanı əsasında 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramı qəbul olundu. İndiyədək ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair üç Dövlət Proqramının icrası yüksək səviyyədə təmin edilib və Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti fərmanla “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiqlənib. Hazırda yeni Dövlət Proqramının icrası da yüksək səviyyədə təmin edilir”, - deyə ekspert vurğulayıb.

Aygün Məmmədova bildirib ki, Azərbaycanın hər bölgəsinin özünəməxsus iqtisadi potensialı var. Dövlət proqramları hazırlanarkən bölgələrin iqtisadi resursları, əmək ehtiyatları və əlbəttə ki, həlli vacib olan məsələlər, insanların istəkləri nəzərə alınıb. Bütün bunlar isə regional inkişaf proqramlarının uğurlu icrasını şərtləndirir.

**Bölgələr üzrə güclü infrastruktur təminatı**

Aygün Məmmədova diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasında bütün ölkə üzrə yüksək səviyyəli infrastrukturun yaradılması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. “Dövlət başçısı dəfələrlə belə bir fikri əsaslandırıb ki, zəruri infrastruktur yaradılmadan ölkə üzrə iqtisadi inkişafı təmin etmək mümkün deyil. Prezident İlham Əliyev infrastruktur quruculuğuna həm də insanların həyatı ilə sıx şəkildə bağlı olan sosial məsələ kimi baxır. Beləliklə, əgər bütün ölkə üzrə yüksək səviyyəli infrastruktur varsa, deməli, inkişaf da olacaq, insanların məmnunluğu da artacaq”, - deyə ekspert bildirib.

A.Məmmədovanın sözlərinə görə, respublikamızda regional inkişaf proqramları çərçivəsində reallaşdırılan infrastruktur quruculuğu ölkənin bütün bölgələrini əhatə etməklə müxtəlif istiqamətlərdə aparılır. Fikirlərinə davam edən ekspert vurğulayıb: “Respublikamızda yol layihələrinin icrası geniş vüsət alıb. Diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, Prezident İlham Əliyevin tapşırıqları əsasında bu gün regionlarda kənd yolları da yüksək səviyyədə yenidən qurulur. Hazırda ölkə üzrə qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb, hətta ucqar dağ kəndlərinə belə “mavi yanacaq” xətləri çəkilib. Bir vaxtlar ölkənin regionlarının elektrik enerjisi təminatında çox ciddi çətinliklər yaşanırdı. Ancaq regional inkişaf proqramları çərçivəsində görülən işlərin nəticəsi olaraq ölkə üzrə elektrik enerjisi ilə təchizatda hər hansı bir problem yaşanmır. Bütövlükdə hazırda Azərbaycanın infrastruktur təminatının dünyanın inkişaf etmiş ölkələrindəki səviyyəyə yüksəldiyi qənaətini tam əminliklə bölüşə bilərik”.

**Quba-Xaçmaz iqtisadi rayonu üzrə müsbət dəyişikliklər**

“Müsbət dəyişiklikləri, həmçinin Quba-Xaçmaz iqtisadi rayonu üzrə də izləmək mümkündür. Bu iqtisadi rayona Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları daxildir. Son illərdə sadalanan hər bir rayonun siması dəyişib. İqtisadi rayon üzrə sahibkarlığın inkişafı güclü şəkildə təşviq olunur. Yerli sahibkarlar bölgə üçün xarakterik olan təsərrüfat sahələri ilə məşğul olmağa üstünlük verirlər. Sahibkarlar özəl təsərrüfatlarını yaradarkən bir qayda olaraq dövlət dəstəyindən, güzəştli kreditlərdən bəhrələnirlər. Fermerlərə müxtəlif sahələr üzrə subsidiyaların verilməsi onların əkin-biçinə marağını artırıb. Quba-Xaçmaz iqtisadi rayonunda respublika üzrə ilk dəfə olaraq ağıllı bağ təsərrüfatı yaradılıb. Son illərdə respublikamızda aqroparkların yaradılması geniş vüsət alıb. Dövlət başçısının iştirakı ilə Xaçmaz rayonunda istifadəyə verilən Yalama aqroparkı bu sahədə fəaliyyətə başlayan ilk təsərrüfatlardandır. 523 hektar ərazidə salınan aqroparkın yaradılmasına birinci mərhələdə 20 milyon manat investisiya qoyulub. Uğurlu nəticələr qazanan aqropark getdikcə fəaliyyətini daha da genişləndirir”.

O, vurğulayıb ki, regional inkişaf proqramlarının Quba-Xaçmaz iqtisadi rayonu üzrə yerinə yetirilməsindən söhbət açarkən Taxtakörpü su anbarının tikintisini xatırlamamaq mümkün deyil. Bu, nəhəng infrastruktur obyektidir və onun sayəsində şimal bölgəsində həm əhalinin, həm də təsərrüfatların su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu gün iqtisadi rayon üzrə aqrar sektorun inkişafında, dövriyyəyə yeni torpaqların cəlb olunmasında Taxtakörpü su anbarının rolu əvəzsizdir.

Ekspert Quba-Xaçmaz iqtisadi rayonunun kənd təsərrüfatı potensialı kimi, turizm imkanlarının da kifayət qədər geniş olduğunu bildirib. “Respublika üzrə ən böyük aqropark bu bölgədə yaradılıb. Eyni zamanda, respublikamızın ən iri turizm obyekti olan “Şahdağ” Turizm Kompleksi də şimal-qərb bölgəsində yerləşir. Bu unikal istirahət mərkəzi qısa müddətdə həm ölkə daxilində, həm də respublikamızın hüdudlarından kənarda böyük şöhrət qazanıb”, - deyə A.Məmmədova bildirib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə hazırlanmışdır

## Azərbaycana qarşı cinayət törədənlər qanun qarşısında cavab verirlər

# “Miatsum” kitabı bağlandı!

## 3 “prezident”, 1 “spiker”, 1 “dövlət naziri”, 1 “müdafiə naziri və müavini”...

Antiterror tədbirlərinin bitməsi ilə xunta rəhbərlərinin ədalət mühakəməsi önündə dayanması mərhələsinə start verildi. Ruben Vardanyan, ardından Manukyan, Mnatsakanyan, daha sonra Saakyan, Qukasyan, Arutyunyan və İşxanyan Bakıya gətirildilər. Bu, Azərbaycanın qələbəsi olmaqla yanaşı, beynəlxalq hüququn öz yerini tapmasıdır. Ölkə qanunlarını pozaraq separatçılıq meyllərinə rəvac verənlər, 30 ilə yaxın müddətdə azərbaycanlılara qarşı kütləvi soyqırımları təşkil edənlər, təxribatlar nəticəsində insanlarımızı qətlə yetirən cinayətkarlar bu gün mühakimə olunurlar. Onların cinayətləri isə bəşəri cinayətlərdir və bütün insanlığa qarşı yönəlib.

### Azərbaycanın qətiyyəti...

Son proseslər bir sıra həqiqətlərin üzərinə yenidən işıq saldı - hüququn aliliyinin təmin olunmasını özünün prioriteti elan etmiş Azərbaycan dövləti hər zaman bəyan etdiyi prinsiplərə sadiqdir. Hələ II Qarabağ müharibəsi öncəsi Azərbaycan dövləti məsələlərin sülh ilə həll edilməsinin tərəfdarı kimi çıxış edir, işğala və təcavüzə məruz qalmasına baxmayaraq danışıqlar yoluna sadiqlik nümayiş etdirirdi. Bizim hüquq, beynəlxalq konvensiyalara əsaslanan haqlı mövqeyimizin qarşılığında Ermənistanın siyasi hakimiyyəti, qondarma rejimin rəhbərləri daha böyük “iştaha düşür”, yaratdıqları nağıllara inanırdılar. Nəhayət 2020-ci ildə Azərbaycan öz gücü ilə bu haqsızlığa son qoydu. Vətən müharibəsi Ermənistanın kapitulyasiya imzalaması ilə nəticələndi. Kapitulyasiyadan ötən 3 ilə yaxın dövr ərzində isə dövlətimiz daim qondarma rejimə xitabən bildirib ki, onların təslim olmaqdan başqa, Qarabağda yaşayan erməni sakinlərin rahat reinteqrasiyasına imkan verməkdən savayı yolu yoxdur. Ölkəmizə qarşı törədilən təxribatçı hərəkətlərə verilən layiqli cavablar isə terrorizmə əsaslanan qondarma rejim üçün son xəbərdarlıqlar idi. Bu il mayın 28-də Prezident İlham Əliyev Laçın şəhərində, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105-ci ildönümündə bildirmişdi ki, onların kitabı bağlanıb: “ Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. “Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, “parlament”i buraxmaq. Guya orada “parlament” fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər”.

### Qolubağlı ədalət mühakiməsində

Bu gün Azərbaycan Prezidentinin fikirləri, sözləri yenidən reallıqda özünü əks etdirir. Qondarma rejimin “3 prezidenti”, “1 parlament sədri”, “1 dövlət naziri”, “1 müdafiə naziri və müavini” Bakıda ədalət mühakiməsinə cavab verir. Hələ aylar öncə Azərbaycana qarşı hədə-qorxu ritorikası ilə danışan Araik Artyunyan indi Azərbaycan hüquq “mühafizə orqanlarının başladığı istintaq prosesində dindirilir. Vaxtilə Azərbaycana qarşı təxribatlar törədən Ruben Vardanyan bu gün məhkəmə qarşısına çıxarılır. Eyni zamanda, antiterror tədbirləri başlamamışdan öncə Xankəndidə “müqavimət” yaratmaq üçün cəm olan Qukasyan və Saakyan qolubağlı Bakıya gətirilib. Bu fakt dünya üçün çox mühüm əhəmiyyət kəsb edir - Azərbaycan bir daha bütün bəşəriyyətə hüququn aliliyininin təmin olunmasının mexanizmini nümayiş etdirdi. Azərbaycan növbəti dəfə haqqın - ədalətin qazandığı zəfərin təntənəsini ortaya qoydu...

### Terrora açıq dəstək

Bəli, bu faktdır ki, Azərbaycan İsraildən sonra ikinci ölkədir ki xalqına qarşı hərbi cinayətlər və terror törətmiş şəxsləri tapır və həbs edir. Bunun mexanizmini özü tərtib edir. Antiterror tədbirləri Azərbaycan üçün olduqca mühüm idi - çünki Vətən müharibəsindən ötən 3 il ərzində dünya ictimaiyyəti, beynəlxalq aləm haqq səsimizə qarşı lazımi dəstəyi göstərmirdi. Bəzən beynəlxalq oyunçular içindən Fransa kimi ölkələr tapılırdı ki, separatizmə haqq qazandırır, onların müdafiəsini təşkil etməyə çalışırdı. Aylarla davam edən “humanitar tır” şousu buna bariz misaldır. Nəticədə Azərbaycan son addımı da atdı - cinayətkarları özü cəzalandırmalı oldu. Çünki bu hərbi cinayətkarları cəzalandırmaq üçün beynəlxalq tribunal yaratmaq istəmirlər, əksinə indi də onların müdafiəsinə çıxırlar, bəyanatlar səsləndirirlər. Hər zaman haqq-ədalətdən, demokratiyadan və insan hüquqlarından danışan bu ölkələr və güclər bilməlidirlər ki, bu, terrora açıq dəstəkdir...

**P.İSMAYILOV**

# Əlavə ərazi iddiaları irəli sürən Qukasyan...

## Mülki şəxslərin qətlinə haqq qazandıran separatçıbaşı Bakıdadır...



Qarabağdakı separatçıların keçmiş “prezidentləri”ndən olan Arkadi Qukasyan da özünün “həmkarları” kimi törətdiyi cinayət əməllərinə görə barəsində aparılan cinayət işləri üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılaraq Bakıya gətirilib. Antiterror tədbirlərindən sonra saxlanılan Qukasyan da digərləri kimi Azərbaycan xalqına qarşı cinayətlərdə ittiham olunur. Vaxtilə qondarma rejimə başçılıq etmiş Qukasyan bu gün Azərbaycan qanunvericiliyi əsasında mühakimə qarşısında cavab verir.

**Dosye:** Arkadi Arşaviroviç Qukasyan 1957-ci ilin 22 iyununda Xankəndi şəhərində anadan olub. 1979-cu ildə İrəvan Dövlət Universitetinin dilçilik fakültəsini bitirib. İşçi karyerasına 1981-ci ildə baş redaktor müavini vəzifəsinə başladığı, “Sovet Qarabağı” qəzetinin müxbiri kimi çalışıb. 1981-ci ildən isə bu nəşrin baş redaktorunun müavini olub. 1988-ci ildən Qarabağdakı separatçı hərəkatın fəal iştirakçısını çevrilib. Dağlıq Qarabağdakı separtizmin alovlanmasında xüsusi xidmətləri mövcuddur. O, həmin dövrdə aktiv təbliğatçılardan biri kimi tanınıb. 1990-cı ilin yanvarında Qukasyan separatçı təbliğata görə sovet ittifaqı hüquq-mühafizə orqanları tərəfindən Rostov - Donda həbs edilib və bir ay müddətinə həbsdə qalıb. Daha sonra o, dəfələrlə ev dustaqlığına məhkum edilib. Erməni separatizminin ilk dövrlərində və silahlı qarşıdurma zamanı Qukasyan “müharibə müxbiri” kimi də fəaliyyət göstərib. 1992-ci ilin sentyabrında Qukasyan “dqr” “dövlət müdafiə komitəsi sədri”nin siyasi məsələlər üzrə “müşaviri” təyin edilib. Eyni zamanda o, ATƏT-in Minsk qrupunun himayəsi altında Azərbaycanla münaqişənin həlli üzrə aparılan danışıqlarda “dqr” nümayəndə heyətinin rəhbəri olub. 1993-cü ilin iyulunda qondarma rejimin ilk “xarici işlər naziri” təyin edilib. 1993-cü ildən Qukasyan “dqr təhlükəsizlik şurası”nın üzvüdür.

O, 8 sentyabr 1997-ci ildə qondarma rejimin başçısı olub. 2007-ci il tarixinə qədər bu “vəzifəni” icra edib. 1991-ci ildə Arkadi Qukasyan qondarma separatçıların “parlament”inə “deputat” seçilib. 2000-ci ildə sui-qəsd cəhdindən sağ çıxıb.

Qukasyan bir neçə dəfə ölkəmizə qarşı əlavə ərazi iddiaları ilə də yadda qalıb. O çıxışlarının birində bildirir: “Bakı ordumuzun gücünü yaxşı bilir və başa düşür ki, müharibə bərpa olunarsa, Azərbaycan yeni əraziləri itirə bilər”.

O həmçinin 44 günlük Vətən müharibəsi günlərində azərbaycanlı mülki şəxslərin xaincəsinə qətlə yetirilməsinə haqq qazandırıb. Azərbaycan dövləti tərəfindən saxlanılaraq paytaxta gətirilən Qukasyan da mühakimə olunur...

**SADİQ**

# Xalqımıza qarşı törədilən cinayətlərdə əli olan Saakyan...

## Ali savadı belə olmayan cinayətkar məhkəmədə cavab verəcək



Qarabağdakı xuntanın çöküşü ilə Azərbaycan xalqına və dövlətinə qarşı qeyri-qanuni fəaliyyət göstərmiş, cinayətlərdə günahlandırılan şəxslərin mühakiməsinə başlanılıb. Ən əsası isə Qarabağdakı separatçıların keçmiş rəhbərləri Azərbaycanın ədalət məhkəməsinə çıxarılır. Onlardan biri də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılaraq Bakıya gətirilən Bako Saakyandır. Bu şəxs Qarabağdakı qeyri-qanuni xuntanın başçısı kimi Azərbaycanın qanunvericiliyini pozaraq separatizmə şərait yaradıb. Bununla bağlı Saakyanın dosyesini təqdim edirik.

Bako Saakoviç Saakyan 1960-cı ildə Xankəndi şəhərində doğulub. 1977-ci ildə Xankəndi şəhər 1 saylı orta məktəbi bitirən Saakyan 1981-ci ildə Xankəndi 9 saylı İstehsalat Mexanikləşdirilmiş Zavodunda mexanik kimi işə qəbul edilib. 1982-ci ildə Xankəndi tikinti materialları zavodunda daşqırıcı olub. 1983-1987-ci illərdə Qədim abidələrin bərpası elmi şöbəsinin Stepanakert filialında usta bərpaçı, 1987-1990-cı illərdə rayon təchizat idarəsində tədarükçü işləyib. 1988-ci ildən Qarabağdakı separatçı hərəkatlənmənin fəallarından biri kimi tanınıb. Həmin illərdə Saakyan separatçılar üçün xarici ölkələrdən qaçaqmalçılıq yolu ilə silah gətirilməsinə məsul idi. Bir sözlə, o, karyerasına belə başlayıb. Lakin bir müddət sonra onun pul məmnimsədiyi üzə çıxıb və nəticədə bu “vəzifə”dən kənarlaşdırılıb. Onun da əli Azərbaycan xalqının qanına batıb. 1990-94-cü illərdə xalqımıza qarşı törədilən cinayətlərdə Saakyanın fəal iştirakı olub.

1990-cı ildə o, “dqr özünümüdafiə qüvvələri” adlı qanunsuz silahlı birləşmənin üzvü olub. 1992-1993-cü illərdə qondarma rejimin “özünümüdafiə qüvvələri komitəsinin” maddi-texniki təchizat üzrə müavini, 1993-1995-ci illərdə “maddi-texniki təchizat üzrə qərargah rəisi”, 1995-1996-cı illərdə qondarma rejimin “müdafiə ordusu komandanı”nın xarici əlaqələr üzrə müavini, 1997-1999-cu illərdə Ermənistanın daxili işlər və milli təhlükəsizlik nazirinin köməkçisi olub. 1999-2001-ci illərdə “dqr daxili işlər naziri”, 2001-2007-ci illərdə “dqr milli təhlükəsizlik naziri” vəzifələrində çalışıb.

Saakyan qondarma rejimin 3-cü başçısı olub. O, ilk dəfə 19 iyul 2007-ci ildə “prezident” seçilib. 19 iyul 2012-ci ildə ikinci dəfə beş il müddətində öz “vəzifə”sində qalıb. Bako Saakyan 2017-ci ildə keçirilən qondarma seçkilərdə yenidən seçilərək, 3 il müddətində bu “vəzifəni” icra edib.

Sentyabrın 19-20-də baş tutan antiterror tədbirləri zamanı qondarma rejimin müqavimətini təşkil etmək üçün “müzakirələr aparan” komitənin üzvü kimi Saakyan da bəzi “məsləhətlər” verib. Bu, erməni mediasında da geniş yer alıb. Antiterror tədbirlərinin uğurlu nəticəsi sayəsində Saakyan saxlanılaraq Bakıya gətirilib.

**SADİQ**

# Gəncəni bombalamaq əmri verən...

## Arutyunyanın dosyesi



24 saatlıq antiterror tədbirlərinin nəticəsi olaraq Azərbaycana qarşı cinayətlər törətmiş şəxslərin saxlanılması davam edir. Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları Qarabağda separatçıların keçmiş “prezidenti” Araik Arutyunyanı da saxlayıblar. O Bakıya gətirilib və hətta ilkin dindirilməsi belə olub. Onun vəkili təyin edilən Alov Səfərəliyev dindirilmədə iştirak edib. “Bu gün Araik Arutyunyanın müdafiəçisi kimi onun dindirilməsində iştirak etdim. Səhhəti və psixoloji durumu yerindədir. Təkcə onu deyə bilərəm ki, onun dedikləri bir çox məsələlərin açılmasına kömək olacaq. Müdafiəmizi Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq konvensiyaların tələblərinə və vəkil etikasına uyğun olaraq quracağıq. Bir sözlə, peşə borcumuzu vicdanla yerinə yetirəcəyik!”, - deyə vəkil bildirib.

Məsələnin aktuallığını nəzərə alaraq Araik Arutyunyanın separatçı xuntadakı “vəzifələrini” araşdırdıq.

**Dosye:** Araik Vladimiroviç Arutyunyan 1973-cü ildə Xankəndi şəhərində anadan olub. 1990-cı ildə Xankəndi fizika-riyaziyyat təmayüllü məktəbi bitirərək İrəvan Xalq Təsərrüfatı İnstitutuna qəbul olub. Daha sonra qondarma rejimin yaratdığı “artsax” universitetində aspiranturanı bitirib.

1992-ci ildə Qarabağda yaradılan qanunsuz silahlı birləşmələrin tərkibində Azərbaycan ordusuna qarşı döyüşüb. 1995-97-ci illərdə separatçı rejimin “İqtisadiyyat və maliyyə nazirinin” köməkçisi olub. 1999-2004-cü illərdə “Armaqrobankın” Xankəndi filialının rəhbəri olub. 2005-ci ildə “Azad Vətən” adlı partiyanın sədri kimi separatçı rejimin “parlamentinə” seçilib. 2007-ci ildən 2017-ci ilə kimi separatçı rejimin “baş naziri” olub. 2009-cu ildə yenidən “Azat Ayenik” partiyasının sədri seçilib. 2010-cu ildə rəhbərlik etdiyi “Azat Ayenik” partiyası qondarma respublikanın parlamentinə keçirilən seçkilərdə 33 yerdən 14-nü qazanaraq qalib gəlib. 25 sentyabr 2017-6 iyun 2018-ci illərdə qondarma respublikanın “dövlət naziri” olub. Araik 31 mart 2020-ci ildə qondarma respublikanın “başçısı seçkiləri”ndə birinci turda 1-ci yeri tutub.

44 günlük Vətən müharibəsində Azərbaycana qarşı bir sıra təxribatlarda iştirak edən Arutyunyan Gəncə şəhərinə qarşı xain raket hücumunun əmrini verdiyini özü etiraf edib. Bununla bağlı videomüraciətdə o bildirib ki, məhz onun sərəncamı ilə Gəncə yaylım atəşinə tutulub: “Mənim sərəncamımla “artsax silahlı qüvvələri” yaylım atəş sistemi ilə Gəncə şəhərini vurub. Vaxtında qeyd etmişdim, xəbərdarlıq etmişdim. Təəssüflər olsun ki, bizim tarixi “Qandzak”ı - Gəncəni, “Kirovabad”ı, onların daimi hərbi yerləşdirmə yerlərini vurmuşuq. Çünki onlar buna məcbur etdilər. Özünüzə gəlin. Çünki daha böyük şəhərləri vurmağa ehtiyac olarsa, davam edəcəyik. Yeri gəlmişkən, düşmənə zaman verərək bir müddət böyük şəhərlərin raket və artilleriya ilə atəşə tutulmasını dayandırmaq əmrini vermişəm. O, xəbərdarlıq atəşi idi”.

Araik Arutyunyan bu il avqustun 31-də qondarma rejimin başçılığından istefa vermişdi. 24 saatlıq antiterror tədbirləri zamanı müqavimətə əl atmaq istəyən “komandanın” üzvü kimi müzakirələrdə iştirak edib. Bunu sübut edən fotoşəkillər mövcuddur. Arutyunyanın oktyabrın 3-də həbs edilməsi xəbəri yayılıb. Qondarma rejimin başçısı Azərbaycanın ədalət mühakiməsinə cavab verir...

**SADİQ**

# Faşizmi təbliğ edən partiyanın təmsilçisi...



## “Daşnaksütyun”dan olan qondarma “parlament sədri” İşxanyan saxlanılıb

Azərbaycan dövləti beynəlxalq hüququ və beynəlxalq konvensiyaları əsas götürərək öz ərazisində keçirdiyi antiterror tədbirləri nəticəsində bir sıra cinayətkarların saxlanılmasına nail olub. Bu şəxslər uzun illər boyu ölkəmizə, qanunvericiliyimizə və dövlətimizə qarşı fərqli cinayətlərdə yer alıb, separatizmin təşviq edilməsində iştirak ediblər. Bu gün məhkəmə qarşısında cavab verən bu şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ədalətin təntənəsidir.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılaraq Bakıya gətirilən bu cinayətkarlardan biri də Qarabağdakı separatçıların rəhbərlərindən olan, “Daşnaksütyun” partiyasının “Qarabağ təmsilçisi” və separatçı rejimin keçmiş “parlament sədri” David İşxanyandır. David İşxanyan da əlbir olduğu separatçı rejim başçıları kimi xalqımıza və dövlətimizə qarşı fərqli cinayətlər törədib.

**Dosye:** 1968-ci il dekabrın 28-də Xocavənd rayonunun Heşan kəndində doğulan David Rubenoviç İşxanyan 1992-ci ildə Xankəndi Pedaqoji İnstitutunun tarix-hüquq fakültəsini bitirib. 1980-ci illərin sonunda separatçı hərəkatın fəallarından olub. Əvvəlcə tələbə qrupunun üzvü kimi fəaliyyət göstərib, 1989-cu ildə “Daşnaksütyun” partiyasına daxil olub. 1991-ci ildə qondarma rejimin birinci çağırış qondarma parlamentinin üzvü olub. Birinci Qarabağ müharibəsi zamanı “dqr” “müdafiə ordusu”nda xidmət edib. Xocavənd rayonunun 28 saylı batalyonunun komandiri olub. 1995-ci ildə ordudan tərxis olunduqdan sonra doğulduğu kənd məktəbinə direktor vəzifəsinə təyin olunub və sonrakı 5 ildə burada işləyib. Heşan kənd məktəbinin direktoru, kənd icmasının başçısı olub.

2007-2021-ci illərdə qondarma rejimin təmsilçisi postunu tutub. 2022-ci ildən “büro” üzvüdür. 2023-cü il avqustun 7-də qondarma parlamentin “sədr”i “vəzifəsinə seçilib”.

İşxanyan hər zaman xüsusi amansızlığı ilə seçilib. O, təmsil etdiyi “Daşnaksütyun”un mahiyyətinə uyğun olaraq on qəddar şəxslərdən biri kimi tanınır. Sentyabrın 19-20-də baş tutan antiterror tədbirləri nəticəsində saxlanılan İşxanyan Bakıya gətirilib.

**SADİQ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




*Günel ABBAS*




## Bu gün onların günüdür

Bu gün Beynəlxalq Müəllimlər Günüdür. Müəllimlər günü UNESCO-nun qərarı ilə 1966-cı ildən qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunub. Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır.

Ölkəmizdə müəllimlər günü 1993-cü ildən qeyd edilməyə başlanıb. Ulu Öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər verib. “Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram” deyən Ümummilli Lider bu yanaşmadan çıxış edərək müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı davamlı qərarlar qəbul edib. Heydər Əliyevin bir özəlliyi də ondan ibarət idi ki, hər yeni tədris ilinin ilk günündə məktəblərdə olur, müəllim və şagirdlərlə görüşür, onları dinləyir və öz müdrik tövsiyələrini verirdi. Azərbaycan müəllimlərinin XI qurultayında geniş məruzə ilə çıxış edən Ulu Öndər deyib: “Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimlərdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi?”.

**Müəllimlərə dövlət qayğısı**

Təsadüfi deyil ki, Ümummilli Lider müəllimlərin əməkhaqlarının artırılması, onlara fəxri adların verilməsi ilə bağlı dəfələrlə sərəncamlar imzalayıb. Heydər Əliyev fədakar əməyi ilə fərqlənən müəllimlərin fəaliyyətinin rəğbətləndirilməsinə xüsusi diqqət yetirirdi. 1970-ci illərdə 817 nəfər “Əməkdar müəllim” fəxri adı almış, 3 nəfər müəllim o dövrün ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Ulu Öndərin siyasi kursunun uğurlu davamçısı, Prezident İlham Əliyev də milli təhsilin inkişafına, müəllimlərin sosial vəziyyətinin yaxşılaşmasına həmişə xüsusi qayğı ilə yanaşıb. Məhz bu qayğının nəticəsidir ki, Azərbaycanda müəllimin nüfuzu ilbəil artır, güzəranı getdikcə yaxşılaşır. Hələ 2004-cü ildə Prezident “2005-2008-ci illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə Dövlət Proqramı”nın qəbul edilməsi ilə bağlı xüsusi sərəncam imzalayıb. Bu gün Təhsil Nazirliyi müəllimlərin seçilməsi və işlə təmin edilməsi sahəsində dünyada sınaqdan keçirilmiş mexanizmlərin tətbiqi istiqamətində bir sıra əhəmiyyətli addımlar atır.

> **Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram!**
> **Heydər Əliyev**

**Müəllim dəyişəndə cəmiyyət də dəyişir...**

Cəmiyyətdə belə bir fikir formalaşıb ki, müəllim əməyi əsl vətənpərvərlik nümunəsidir. Xalq arasında deyilir ki, müəllim dəyişəndə cəmiyyət də dəyişir. Söz yox ki, müəllim təhsildə əsas sima, ən nüfuzlu şəxsdir. Azərbaycan dövləti onların şərəfli əməyini həmişə yüksək qiymətləndirib.

Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Son illərdə ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəblər tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici hal bir də odur ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə öz mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, həmin təhsil müəssisələrinin əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni, müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin “Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər” fikrini reallığa çevirir. Təhsil işçilərinin əməkhaqlarının artırılması, onların mükafatlandırılmaları, fəxri adlarla təltif edilmələri, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar da təhsil işçiləri üçün böyük stimul olmaqla yanaşı, həm də onların məsuliyyətini artırır.

Müəllimlər bu gün cəmiyyətimizin nüfuzlu şəxslərindən hesab olunurlar. Onlara xalq arasında böyük hörmət və ehtiram var və gələcəkdə də belə olacaq. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. Amma cəmiyyət müəllimə borclu olduğu kimi, müəllim də cəmiyyət qarşısında öz borcunu, məsuliyyətini hiss etməlidir.

Heç şübhəsiz ki, müstəqil Azərbaycanımızın müəllimlər ordusu xalqımızın gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edir, xalqımıza layiq vətəndaşların yetişdirilməsində öz xidmətlərini əsirgəmirlər. Bayramınız mübarək, əziz müəllimlər!




### Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayevə anası

**MAHİZƏR İSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

### Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP Veteranlar Şurasının üzvü Tağı Əhmədova qardaşı

**VƏLİ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



## “Sabah”ın basketbolçusu: Olduqca vacib qələbə qazandıq



Ev sahibi komandaya qarşı oyunun ağır olacağını bilirdik. Xüsusilə də ötən gecə keçirdiyimiz çətin matçdan sonra bu qarşılaşmada da mübarizənin gərgin olacağını gözləyirdik.

Bu sözləri AZƏRTAC-a açıqlamasında “Sabah” klubunun basketbolçusu FIBA Avropa Kubokunun A qrupunun II turunda Şimali Makedoniyanın “Rabotniçki” komandasına 83:81 hesabı ilə qalib gəldikləri oyun barədə danışarkən deyib.

ABŞ-dan olan 32 yaşlı müdafiəçi matçın bəzi məqamlarında yaxşı oynamadıqlarını bildirib: “Lakin sonradan komanda özünü toparladı. Olduqca vacib qələbə qazandıq. Əlbəttə, səfər oyununda geridönüş etmək çox çətin olur. Amma biz bunu bacardığımız üçün çox sevinirik”.

Qeyd edək ki, Azərbaycan çempionu qrupdakı son matçını Rumıniyanın “Rapid” kollektivinə qarşı keçirəcək. Qarşılaşma oktyabrın 5-də baş tutacaq.

## AFFA rəsmisi Avropa çempionatının seçmə mərhələ oyununa təyinat alıb



AFFA-nın Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri, İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva UEFA-dan yeni təyinat alıb.

AZƏRTAC milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, o, 21 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə mərhələsinin D qrupunda keçiriləcək İsrail - Estoniya oyununun UEFA nümayəndəsi olacaq.

Qeyd edək ki, qarşılaşma oktyabrın 12-də baş tutacaq.

## Kəmər güləşi üzrə Azərbaycan millisi Avropa ikincisi olub




Kəmər güləşi üzrə Azərbaycan millisi Avropa ikincisi olub.

Bakıda kəmər güləşi üzrə 3-cü Avropa çempionatına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, yarışı 30 medalla başa vuran Azərbaycan millisi komanda hesabında ikinci yeri tutub.

Qeyd edək ki, Azərbaycan idmançıları qitə çempionatında 1 qızıl, 6 gümüş və 23 bürünc medal qazanıblar.

## AMADA-nın direktoru Avropa Şurası ölkələrinə müraciət edib

Oktyabrın 3-də Latviyanın paytaxtı Riqada Avropa Şurasının təşkilatçılığı ilə antidopinq sahəsində ədalətli məhkəmə üzrə plenar sessiya keçirilib.

Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) AZƏRTAC-a verilən məlumata görə, mötəbər tədbirdə ölkəmizi AMADA-nın direktoru Şəfəq Hüseynli təmsil edib.



Tədbiri Avropa Şurasının Baş katibinin müavini Byörn Berge açaraq, qurumun hazırladığı antidopinq sahəsində ədalətli məhkəmə hüququnun təmin edilməsi sənədinin insan hüquqlarının qorunmasına yönəldiyini vurğulayıb.

Sonra sessiyada Norveç Milli Antidopinq Təşkilatının direktoru Anders Solheim və AMADA-nın rəhbəri Şəfəq Hüseynli bu istiqamətdə görülmüş işlər barədə çıxış ediblər. Çıxışlar zamanı sənədin mahiyyəti, məqsədi və irəli gələn məsələlər barədə məlumat verilib. Ş. Hüseynli həmçinin Azərbaycanda bu istiqamətdə qurulmuş və qanunvericilik tərəfindən təmin edilmiş mexanizmlə bağlı xüsusi təqdimatla çıxış edib.

Anders Solheim və Şəfəq Hüseynli antidopinq sahəsində ədalətli məhkəmə hüququnun təmin edilməsi sənədinin hazırlanması üçün Avropa Şurası tərəfindən yaradılmış xüsusi qrupun sədr və sədr müavini olublar.

Qeyd edək ki, Şəfəq Hüseynli hazırda Avropa Şurasının Monitorinq Qrupunun sədr müavinidir və sənədin icrasına operativ nəzarət edir.




## Azercell “Tələbə Təqaüdü Proqramı 2024” üçün qeydiyyatı açıq elan edir!

### Lider mobil operatorun “Tələbə Təqaüdü Proqramı”na seçilmiş tələbələri aylıq 300 azn məbləğində təqaüd gözləyir

Azercell müvəffəqiyyətlə təhsil alan və akademik fərq nümayiş etdirən tələbələri təhsilə daha çox həvəsləndirmək, yüksək potensiala malik gənclərin gələcək mütəxəssis kimi formalaşmasına dəstək olmaq məqsədilə növbəti “Tələbə Təqaüdü Proqramı”na start verir.

Şirkət “Tələbə Təqaüdü Proqramı 2024”ə seçilmiş 10 tələbəyə aylıq 300 azn məbləğində təqaüd təqdim edəcək.

Data Elmi, Şəbəkə, İnformasiya Texnologiyaları, Kibertəhlükəsizlik, Marketinq sahələri üzrə Azərbaycan Respublikasının müxtəlif ali təhsil müəssisələrində bakalavr təhsili alan sonuncu 2 kursun tələbələri bu proqrama müraciət edə bilərlər. Namizədlərin son 2 kurs qiymətləri A və ya B (5 və ya 4) olmalıdır.

Azercell-in “Tələbə Təqaüdü Proqramı”na müraciət etmək üçün şirkətin rəsmi veb səhifəsində (www.azercell.jobs) müvafiq linkə keçid almaq lazımdır. Seçim mərhələlərinin gedişi və nəticəsi haqqında məlumat namizədlərin elektron poçtuna göndəriləcək. Ərizələr 01.10.2023-dən 31.10.2023 tarixinədək və yalnız onlayn formatda qəbul ediləcək.

Əlavə məlumat üçün telebe@azercell.com ünvanına müraciət edə bilərsiniz.

Qeyd edək ki, Azercell əməkdaşlarının Gəncə (17.10.2023), Naxçıvan (23.10.2023) və Lənkəran (30.10.2023) şəhərlərinə səfər edərək proqram çərçivəsində universitetlərdə tələbələrlə görüşləri də təşkil olunacaq.

Azercell-in “Tələbə Təqaüdü Proqramı” yalnız maddi dəstəklə məhdudlaşmır. Hər il bu proqram çərçivəsində onlarla gənc Azercell-də təcrübə keçərək telekommunikasiya sahəsi üzrə biliklərini artırır və gələcək karyeraları üçün əvəzedilməz təcrübə qazanırlar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7276**
**Sifariş: 2583**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Məsul növbətçi:
Günel Abbas